# Meyar milli və ədəbi dəyərlərdir



*Məhəmmədəli Mustafayev*
*filologiya eimləri doktoru,*
*professor*

**Azərbaycan Milli Elmlər Akademiyasının vitse prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili, akademik İsa Həbibbəylinin elmi-ictimai və ədəbi-mədəni fəaliyyəti heyrətamiz dərəcədə geniş, hərtərəflidir. Onun bu fəaliyyəti ümumilli liderimiz Heydər Əliyev cənabları, siyasi varisi, indiki prezidentimiz İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilib. Anadan olmasının 70 illiyi münasibəti ilə möhtərəm prezitentimiz İlham Əliyev tərəfindən 1-ci dərəcə "Vətənə xidmətə görə" medalı ilə təltif olunması uzunillik səmərəli fəaliyyətinə verilən qiymətin göstəricisidir.**

İsa Həbibbəyli romantik lirikanın öyrənilməsi ilə tədqiqata başlayıb. Düzdür, əvvəlki onilliklərdə Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Maqsud Əlioğlu kimi kifayət qədər elmi-nəzəri hazırlığı olan tədqiqatçılarımız problemi müxtəlif istiqamətlərdən tədqiqata gətirmiş, xüsusən Əziz Mirəhmədov, M.Hadinin, Məmməd Cəfər Cəfərov, H.Cavidin, Kamal Talıbzadə A.Səhhətin, Əflatun Məmmədov A.Şaiqin romantik yaradıcılığını kifayət qədər öyrənmişdilər. Şübhəsiz ki, bu əsərlər XX əsr romantik lirikasının tipologiyasını müəyyənləşdirmək, onun bədii estetik və fəlsəfi məzmununu ədəbiyyatşünaslığa gətirmək üçün ilkin şərtlər və elmi zəmin hazırlamışdı. Lakin hətta 70-80-ci illərə qədər də XX əsrin əvvəllərində romantik lirikanın bədii estetik sistemi bütöv və elmi şəkildə tədqiat predmetinə çevrilməmişdi. Bu o qədər də asan məsələ deyildi. Romantik nə vardısa marksist estetika tərəfindən qısqanclıqla qarşılanır, romantik poeziyanın estetikasını, imkanlarını, bəşəri, humanist, eyni zamanda milli dəyərlərini vəhdət qovşağına gətirən ənənəvi bir poeziya tipini olduğu kimi, obyektiv-tarixi mövqedən tədqiq etməyə imkan verilmirdi. Ədəbiyyatşünaslığımızdakı bu boşluğu İsa Həbibbəyli doldurdu.

### Hələ ilk elmi uğurlarından görünür ki,

o, ənənəvi sosioloji təhlil üsulundan uzaqlaşmağa çalışır, milli ədəbiyyatşünaslığımızda yeni bir metodoloji istiqamətin-poetika, sənətkarlıq məsələlərinin önə çəkilməsinin elmi yaradıcılıqda ilk əsasını qoyanların sırasında çıxış edir.

İsa Həbibbəyli daim axtarışda olan, klassik və müasir ədəbi irsin dəyərləndirilməsində vətəndaşlıq və milli ləyaqət duyğusu mövqeyində dayanan, ruhən azad olan, məsuliyyət hiss edən bir tədqiqatçıdır. Adətən tədqiqatçıları iki qrupa bölürlər; birincisi, daim arxiv materialları üzərində işləyən, ədəbiyyat tarixi materiallarını üzə çıxaran və əldə olunan nəticələri ümumiləşdirərək uğurlu nəticələr qazananlar; ikincisi, hazır ədəbi-tarixi materiallar və arxiv sənədlərinə əsaslanıb nəzəri fikirlər, ümumiləşdirilmiş ədəbi nəticə söyləyənlər. İsa Həbibbəyli birinci qismə daxil olan ədəbiyyatşünaslardan hesab edilir. Daim yeni ədəbi-tarixi materiallar və arxiv sənədlərin axtarışındadır. "Böyük demokrat Cəlil Məmmədquluzadə", "Mirzə Ələkbər Sabirimiz", "Hüseyn Cavid və sənəti", "Məsləki tərcümeyi-halı olan yazışı", "Vətən həsrətli Ceyhun Hacıbəyli", "İsa Hüseynovdan İsa Muğannaya: axırıncı əlyazma və bütöv dünya" məqalələrində əsas diqqət ədəbi fakt, yeni sənədlər istiqamətinə yönəldilibsə, "Məhəmməd Hadi yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" ,"Elmilik və bədiilik: paralelliklərin vəhdəti", "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatı", "Ədəbi ələqələrdən müqayisəli ədəbiyyatşünaslığa", "Ədəbiyyat nəzəriyyəsi yollarında" əsərlərində geniş nəzəri ümumiləşdirmələr, ədəbi-fəlsəfi dəyərləndirmələr, ədəbi faktın milli dəyər kimi təhlili ön plana keçir.

Ancaq bu yeni ədəbi faktları o müxtəlif tədqiqat əsərlərində nəzəri təfəkkür süzgəcindən keçirir, ədəbi hadisəni ictimai-sosial hadisə səviyyəsinə yüksəltməyi bacarır. "Romantik lirikanın imkanları" (1984), "Cəlil Məmmədquluzadə: Ədəbi mühiti və müasirləri" (1997) kimi monoqrafiyaları, "Cəlil Məmmədquluzadə" (1987), "Zamanın dühası" (1993), "Xalq şairi Məmməd Araz" (1999) albom-monoqrafiyaları, "Ədəbiyyat nəzəriyyəsi" (1985), "XX əsr Azərbaycan ədəbiyyatı" (1990), "Naxçıvan seçmə kursu" (1996), "Abbas Zamanov və müasirləri" (2003),"Ədəbi şəxsiyyət və zaman" (2917) kimi əsərləri təkcə ədəbi-tarixi faktlar və arxiv materialları üzərində gərgin əməyin, intensiv tədqiqatçı axtarışlarının nəticəsi deyil, eyni zamanda geniş, hərtərəfli nəzəri təfəkkürün bəhrəsidir.



### İsa Həbibbəyli

geniş erudisiyaya, hərtərəfli elmi hazırlığa, zəngin biliyə malik olan ədəbiyyatşünaşünasdır. Onun tədqiqat sferasının mərkəzində böyük ədibimiz Cəlil Məmmədquluzadənin zəngin ədəbi irsi, müasirlərinin həyat və yaradıcılığı dayanır. Belə ki, realist nəsrimizin, dramaturgiyamızın və milli mətbuatımızın bu nəhəng simasının ictimai-ədəbi irsini diqqətlə tədqiq etməklə İsa Həbibbəyli həm də öz ədəbi zövqünü formalaşdırıb, klassik irsi tədqiq etmək və dəyərləndirmək texnologiyalarını öyrənib. Təbii ki, Cəlil Məmmədquluzadə irsinin təbliği və nəşri sahəsində də onun xidmətləri sistemli şəkildədir. Müxtəlif illərdə nəşr olunan "Cəlil Məmmədquluzadə, Pyeslər" (1990), "Cəlil Məmmədquluzadə" (2002), "Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri (2003),"Cəlil Məmmədquluzadə. Əsərləri": 4 cilddə (2004) "Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri: 2 cilddə (2009). "Cəlil Məmmədquluzadə: taleyi və sənəti" (2010) kitablarının tərtibçisi və ön sözün müəəlifi Akademik İsa Həbibbəylidir.

İsa Həbibbəylinin bütün həyatı milli dövlətçiliyə, onun böyük qurucusu, ümummilli liderimiz H.Əliyevin dövlət quruculuğu konsepsiyasına, milli ideyalara bağlıdır. O həmişə H.Əliyev məktəbinin yetirməsi olduğu ilə fəxr edir, öz gündəlik işində, əməli fəaliyyətində böyük öndərimizin siyasi-ictimai kursuna sadiqliyini sübut edir. 1997-ci ildə Naxçıvan MR Ali Məclisinin deputatı seçilən İsa Həbibbəyli 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində Heydər Əliyevin vəkili olub. 1999-cu ildə "Əməkdar elm xadim" fəxri adına layiq görülüb.

"Molla Nəsrəddin" ictimai məfkurəsindən H.Əliyev siyasətinə keçidin əsasında dövlətçilik ənənələrinə hörmət, xalqa, dövlətə xidmətin çeşidli yollarına sədaqət dayanır. XX əsrin 70-ci illərindən yeni əsrin ikinci onilliyinə qədər olan zaman məsafəsində o, klassik və müasir ədəbiyyatımızın müxtəlif problemləri ilə bağlı çoxsaylı monoqrafiyalar, elmi və publisistik məqalələr, portret oçerklər yazıb, kitablar praşuralar və biblioqrafik göstəricilər tərtib edib və onların redaktoru olub, ön söz yazıb, dərs vəsaitləri, metodik göstərişlər hazırlayıb.

### İsa Həbibbəylinin elmi üslubu

xüsusi tədqiqat tələb edir. Belə ki, onun ayrı-ayrı məqalələrini, elmi monoqrafiyalarını oxuyanda tədqiqatçı yorulmur, fikir yayınmır. Çünki İsa müəllimin sabit, monolit məntiqi, geniş elmi fikirləri yığcam, lakonik ifadə etmək bacarığı istər-istəməz diqqəti eyni hədəfə yönəldir. Bəzi tədqiqatçılar kimi fikri, mətləbi dolaşıq, mürəkkəb cümlələrlə ifadə etməyə çalışmır. Sadə, lakin qısa, konkret cümlə və fikirlərlə dərin, sanballı elmi fikirləri ədəbiyyat tarixi faktına çevirir. O tədqiqatçıların çoxuna bəlli olan elmi həqiqətlərə, ədəbi-tarixi materiallara çağdaş ədəbi-nəzəri fikir kontekstindən yanaşır.

İsa Həbibbəylinin "Xalq şairi Məmməd Araz" albom-monoqrafiyası Məmməd Araz yaradıcılığına ancaq bir şairin ədəbi-taleyi, bədii istiqaməti fonunda yanaşılmır, bədii yaddaşın tarixi xalqın tarixi-etnoqrafik yaddaşı ilə vəhdətdə götürülür, bədii dəyərin ictimai dəyərə çevrilməsinin ictimai-bədii texnologiyaları tədqiqat predmeti kimi elmi təhlilə gətirilir. Məmməd Araz yaradıcılığında bədii estetik xüsusiyyətlərə daha çox diqqət yetirən tədqiqatçı bu zəngin ədəbi irsin ədəbi ənənələrlə bağlılığı üzərində dayanır, müxtəlif bədii estetik sistemləri təmsil edən M.Füzuli və M.Ə.Sabir bədii irsinin M.Araz yaradıcılığına təsirini konkret ədəbi faktlar əsasında müəyyənləşdirməyə nail olur. Ancaq bu da alimin son nəticəsi, məqsədi deyil. Monoqrafiyanın yazılmasında əsas məqsəd bir şair kimi M.Araz yaradıcılığının ideya, sənətkarlıq və məfkurə cəhətlərini müəyyənləşdirmək, şairin poetik yaradıcılıq sistemini tədqiqata gətirmək, çağdaş poeziyanın yaradıcılıq istiqamətini təyin etməkdir. Poetik ənənənin yeni nəsillərə ötürülməsi, yeni ədəbi-tarixi şəraitdə onun hansı estetik əsaslarla meydana çıxması "Xalq şairi Məmməd Araz" albom-monoqrafiyasının əsasında dayanır.

Publisistika ilə elmi üslubun vəhdəti İsa Həbibbəylinin elmi irsinə bir tərəfdən, kütləvilik gətirir, digər tərəfdən ictimai məzmununu genişləndirir. Qeyd edək ki, o, mətbuat tarixi və onun bugünkü reallıqları ilə sıx bağlıdır. İsa Həbibbəyli "Molla Nəsrəddin" ədəbi məktəbinə də, "Füyuzat"a, "Şərqi-Rus"a da, "İrşada"da eyni dərəcədə rəğbət bəsləyir.

Cəlil Məmmədquluzadə; Ədəbi mühiti və müasirləri (1997) monoqrafiası ədəbiyyatşünaslığımızda bu mövzuda yazılan ilk əsərdir. Bunu da qeyd edək ki, İsa Həbibbəyli müraciət etdiyi mövzulara növbəti ədəbi mərhələlərdə yenidən qayitmağa ehtiyac hiss edir, mövzunu qatı acılmayan ədəbiyyat tarixi faktları ilə zənginləşdirir. Bütün bunlarla birlikdə əvvəlki illərdə yazdıqlarına yeni, daha müasir meyarlarla yanaşır. Cəlil Məmmədquluzadə yaradıcılığı ilə bağlı tədqiqatlarında da bu həqiqət aydın görünür. "Cəlil Məmmədquluzadə: Ədəbi mühiti və müasirləri" (1997) əsərindən sonra bu mövzuya dəfələrlə yenidən qayıdıb, nəhayət, bu monoqrafiya əsasında daha da təkmilləşdirilən, xeyli sayda ədəbi-tarixi fakt və arxiv materialları ilə yeniləşən "Cəlil Məmmədquluzadə mühiti və müasirləri" ( 2009) əsərini tamamlayıb. "C.Məmmədquluzadə mühiti və müasirləri" (2009) monoqrafiyasında ədibin 105 müasirinin yeni əsərlərini üzə çıxarıb, onların həyat və yaradıcılığı, tərcümeyi-halı haqqında maraqlı, orijinal fikirlər səsləndirib.

**İsa Həbibbəyli hərtərəfli, çoxşaxəli fəaliyyəti ilə Respublikanın elmi, pedaqoji və mədəni-sosial mühitində getdikcə daha geniş nüfuz qazanır, xalqa, dövlətə və dövlətçiliyə xidmətin parlaq nümunəsini göstərir.**